RAMAZAN BAYRAMINIZ MÜBARƏK!

Vətən bölünməzdir!





# LƏNKƏRAN

İCTİMAİ-SİYASİ QƏZET

№ 05-06 (8543) ◉ Çərşənbə axşamı, 09 aprel 2024-cü il ◉ Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur ◉ Qiyməti 50 qəpik

## APREL DÖYÜŞLƏRİ - BÖYÜK ZƏFƏRİN BAŞLANĞICI

***Azərbaycan Ordusunun parlaq tarixi qələbələrindən olan şanlı Aprel döyüşlərindən səkkiz il ötür. 2016-cı ilin aprelində Ermənistan silahlı qüvvələrinin qoşunların təmas xəttində ardıcıl təxribatlarına cavab olaraq keçirilmiş uğurlu əks-hücum əməliyyatı hərb tariximizə əbədi yazılıb. Azərbaycan xalqının və ordumuzun qəhrəmanlığının nümayişi olan Aprel döyüşləri Vətən müharibəsinin ilkin məşqi və tarixi Zəfərə aparan yolun başlanğıcı kimi dəyərləndirilir.***



2016-cı ilin mart ayının ortalarından ermənilər atəşkəsi intensiv pozmağa başlayıblar. Aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq isə bütün cəbhə boyu Azərbaycan Ordusunun mövqeləri və yaşayış məntəqələri düşmən tərəfindən intensiv atəşə məruz qalıb. Nəticədə ermənilər aprel ayının 2-dən 5-dək qoşunların təmas xəttində silahlı təxribatlar törədiblər. Təxribatlar zamanı dinc əhaliyə də hücumlar olub. Bu hadisələr nəticəsində Azərbaycan Ordusu şəhid verib, həmçinin mülki əhali arasında da ölən və yaralananlar olub.

Döyüşlər zamanı Azərbaycan Ordusu da ermənilərin mövqelərinə cavab zərbələri endirib, həyata keçirilən sürətli əks-həmlə zamanı 2 000 hektardan artıq ərazi azad edilib və daha çox ərazi əməliyyat baxımından nəzarət altına keçib. Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər düşmən qüvvələrindən tam təmizlənib. Horadiz şəhərinin düşmən təhlükəsindən qorunması məqsədilə Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli "Lələ təpə" adlandırılan yüksəklik də Azərbaycan Ordusunun nəzarətinə keçib. Bu döyüşlər nəticəsində 320 erməni hərbçisi məhv edilib, 500-dən artığı isə yaralanıb.

Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlıq və igidliyə görə Azərbaycan hərbçilərinin xüsusi fərqlənən bir qrupu 2016-cı il aprelin 19-da Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə yüksək fəxri ada layiq görülüb, orden və medallarla təltif olunub. Vətən qarşısındakı xidmətlərinə görə təltif edilənlər arasında "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına, "Azərbaycan Bayrağı" və "Vətənə xidmətə görə" ordenlərinə, "Vətən uğrunda", "İgidliyə görə" və "Hərbi xidmətlərə görə" medallarına layiq görülənlər var.

Aprel döyüşlərində Lənkərandan olan onlarla gənc də iştirak edib. Onlardan Cil kənd sakini, 1997-ci il təvəllüdlü Əlizaman Fərrux oğlu İslamov və Hirkan qəsəbə sakini, 1987-ci il təvəllüdlü Rusif İbrahim oğlu Ağayev erməni təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olublar. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Əlizaman İslamov və Rusif Ağayev (ölümündən sonra) "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif ediliblər.

Aprel döyüşlərində Azərbaycan Ordusu düşmənə öz gücünü göstərib. Bunun nəticəsidir ki, 2020-ci ilin sentyabrın 27-də rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 30 ilə yaxın müddət ərzində Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılan torpaqların azad olunması uğrunda döyüşlərə başlayıb. 44 gün davam edən döyüşlər zamanı 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. Belə ki, Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Sükürataz yüksəkləri və daha 5 adsız yüksəklik azad olunub.

Ərazilərin işğaldan azad olunması ilə bağlı şad xəbərləri Azərbaycan xalqına Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev çatdırıb.

Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalayıblar. Bəyanata əsasən, 2020-ci ilin noyabrın 20-də Ağdam rayonu, 2020-ci ilin noyabrın 25-də Kəlbəcər rayonu, 2020-ci ilin dekabrın 1-də isə Laçın rayonu sülh yolu ilə Azərbaycana qaytarılıb. Beləliklə, Azərbaycanın ərazi bütövlüyü bərpa olunub və bununla da Dağlıq Qarabağ münaqişəsi başa çatıb.

Qarabağ iqtisadi rayonuna daxil olan Xocalı rayonunun Fərrux kəndi və ətraf yüksəklikləri 2022-ci il mart ayının sonlarında Azərbaycanın tam nəzarətinə keçib. Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 2020-ci il noyabrın 10-da imzaladığı üçtərəfli bəyanata uyğun olaraq kənd Rusiya sülhməramlı qüvvələrinin nəzarətində idi. Ancaq qanunsuz erməni silahlı dəstələri 30 il əvvəlki kimi Fərruxdan Azərbaycan Ordusunun mövqelərinə atəş açmağa başlamışdı. Azərbaycan Ordusu əməliyyat keçirərək ərazini qanunsuz silahlılardan təmizləyib.

2022-ci ilin avqust ayında Azərbaycan Ordusu Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinə qarşı antiterror əməliyyatı keçirib. "Qisas" adlı cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər nəzarətə götürülüb.

Ermənistanın təxribatı səbəbindən ötən ilin sentyabrın 13-14-də baş vermiş toqquşmalar nəticəsində isə qarşı tərəf yüzlərlə canlı itki verib, texnikaları məhv edilib. Bu döyüşlər Ermənistanın geri oturdulması ilə nəticələnib.

Bu ilin martında isə Azərbaycan Ordusu Yeni Laçın yolunun istifadəyə verilməsi ilə əlaqədar Laçın rayonunun Cağazur və Zabux kəndləri arasında yerləşən bir neçə hakim yüksəklik, əsas və yardımçı yollar, eləcə də sərhədboyu geniş sahələr nəzarətə götürüb.

2023-cü il sentyabrın 19-da üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb.

23 saatdan bir qədər çox davam edən tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılıb. Düşmən ağ bayraq qaldıraraq təslim olub. Bununla da Azərbaycanın bütün ərazilərində Konstitusiya quruluşu bərpa edilib.

**"Lənkəran"**

# LƏNKƏRANDA 31 MART-AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ QEYD OLUNUB





31 Mart - Azərbaycanlıların Soyqırımı Günü Lənkəran şəhərinin mərkəzində soyqırım qurbanlarının xatirəsinə ucaldılmış abidənin önündə qeyd olunub. Səhər saatlarında Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov, icra hakimiyyəti aparatının kollektivi, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, yerli ictimaiyyətin nümayəndələri abidə önünə təzə-tər güllər düzüb, soyqırım zamanı günahsız qətlə yetirilmiş minlərlə azərbaycanlının xatirəsini dərin hüzn və ehtiramla yad ediblər.

Qeyd edək ki, 1918-ci ilin mart-aprel hadisələri zamanı erməni daşnaklarının təcavüzünə daha çox məruz qalan bölgələrdən biri kimi Lənkəran şəhərində, rayonun Mamusta, Yuxarı Nüvədi, Vilvan, Veravul, Girdəni, Cil, Osaküçə, Darquba, Gərmətük, Sütəmurdov və digər kəndlərdə kütləvi qətliamlar törədilib. Ümumilikdə Lənkəran və ətraf rayonlarda 40-dək yaşayış məntəqəsi yandırılaraq yerlə-yeksan olunub, 2000-dən çox dinc sakin qətlə yetirilib.

Soyqırımı qurbanlarının xatirəsinə ucaldılan abidə gün ərzində rayon ictimaiyyəti tərəfindən ziyarət edilib. Rayonda yerləşən idarə və təşkilatlarda, təhsil, səhiyyə və mədəniyyət müəssisələrində soyqırımla bağlı anım mərasimləri, sərgilər, dəyirmi masalar təşkil olunub.



## İCRA BAŞÇISI ŞƏHƏRDƏ APARILAN ASFALTLANMA İŞLƏRİ İLƏ TANIŞ OLUB

Lənkəran Şəhər İcra Hakimiyyəti (ŞİH) tərəfindən şəhər yollarının asfaltlanması istiqamətində cari ilin Tədbirlər Planına müvafiq olaraq zəruri addımlar atılır. Belə ki, təmirə ehtiyacı olan küçələrin siyahısı müəyyənləşdirilərək, ayrılmış büdcəyə uyğun olaraq növbəlilik əsasında asfaltlanma işlərinin cari ilin sonunadək davam etdirilməsi nəzərdə tutulub.

Martın 30-da Lənkəran ŞİH-nin başçısı Taleh Qaraşov asfaltlanması həyata keçirilən şəhid Mirxəyal Kərimzadə və şəhid Anar Səfərov küçələrində aparılan asfaltlanma işlərilə yerində tanış olub, işin gedişi ilə maraqlanıb.

Qeyd edək ki, şəhərin daha 8 küçəsində asfaltlanmanın aparılmasına hazırlıq işləri həyata keçirilir. Bunlar B.Mirsaleyev dalan 2, A.İsmayılov, M.Ə.Rəsulzadə, H.Nəsir, E.Əliyev, Kələntərlilər, Şeyx Zahid dalan 2 və M.Əsədov küçələridir.



Yol infrastrukturunun inkişafı, yeni yolların salınması və asfalt örtüyünün yenilənməsi prosesi Lənkəran Şəhər İcra Hakimiyyətinin diqqətindədir, təmirə ehtiyacı olan bütün şəhərdaxili yolların əsaslı təmiri büdcədən ayrılan vəsaitə uyğun olaraq növbəlilik əsasında aparılır.

Cari ildə qeyd olunan küçələrdən əlavə daha 11 küçənin asfaltlanması nəzərdə tutulub. Hazırda bu istiqamətdə müvafiq sənədləşmə işləri aparılır.

**"Lənkəran"**

## "YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ" ÇƏRÇİVƏSİNDƏ İMƏCİLİKLƏR DAVAM ETDİRİLİR



"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Lənkəranda geniş tərkibli iməclik işləri davam etdirilir. Tərtib olunmuş Tədbirlər Planına müvafiq olaraq şəhər və rayonun yaşayış məntəqələrində ekoloji aksiyaların, iməcliklərin, abadlıq-quruculuq işlərinin ilboyu davam etdirilməsi nəzərdə tutulub.

Yaz fəslinin gəlişi ilə artıq Lənkəran rayonu ərazisindən keçən çayların və Xəzər dənizinin ətraf ərazilərində təmizlik işləri aparılıb və bu istiqamətdə hava şəraitinə uyğun olaraq işlər davam etdirilməkdədir.

Lənkəran Şəhər İcra Hakimiyyəti (ŞİH) başçısının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri, rayonun abadlıq və təmizlik sahələri üzrə xidmət idarələri sakinlərin, eləcə də qonaqların yollardan, küçələrdən və ətraf ərazilərdən rahat gediş-gəlişini təmin etməkdən, habelə rayonun daha təmiz, səliqəli olması və vətəndaşların istirahəti üçün lazımi işlərin görülməsindən ötrü ciddi-cəhdlə fəaliyyətlərini davam etdirirlər.



Lənkəran ŞİH-nin birbaşa nəzarəti altında aparılan işlər rayonu digər inzibati ərazi vahidləri ilə birləşdirən bütün ana yollarda, eləcə də şəhər ərazisində aparılmaqdadır. Yolboyu hasarlar rənglənir, ağacların gövdələri ağardılır, ərazilər kol-kosdan təmizlənir, gül kolları və həmişəyaşıl ağaclar əkilir, sakinlərin rahat gediş-gəlişini təmin etmək məqsədilə səkilərə yeni tametlərin döşənməsi, deformasiyaya uğrayan səki daşlarının yeniləri ilə əvəzlənməsi, yeni bordurların düzülməsi, habelə yolboyu hasarların və həyət darvazalarının rənglənməsi işləri həyata keçirilir.

Rayonda kompleks şəkildə aparılan təmizlik və abadlıq işləri yerli sakinlərin zövqünü oxşayır, məmnuniyyətlə qarşılanır, görülən işlərə görə insanlar dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə edirlər.

**"Lənkəran"**

# İCRA BAŞÇISININ SƏYYAR GÖRÜŞ-QƏBULLARI



**Kənarmeşədə**

Martın 6-da Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov təqvim planına uyğun olaraq Kənarmeşə kənd inzibati ərazi dairəsinin sakinləri ilə növbəti səyyar görüş-qəbul keçirib. Qəbulda şəhər İcra hakimiyyəti aparatının məsul şəxsləri, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri, idarə və müəssisələrin nümayəndələri də iştirak ediblər.

İcra başçısı T. Qaraşov ötən görüşdə qaldırılan məsələlərin icra vəziyyəti barədə yerli sakinləri məlumatlandırıb. Bildirib ki, yerli icra hakimiyyətinin səlahiyyətlərinə aid olan və ədalətli şəkildə qaldırılan bütün məsələlər həllini tapıb, digər məsələlərə dair aidiyyəti üzrə yuxarı qurumlara müraciətlər ünvanlanıb və bu barədə vətəndaşlara qanunvericiliyə uyğun olaraq cavablar verilib.

T.Qaraşov yerlərdə səyyar görüş-qəbulların önəmindən danışaraq qeyd edib ki, bu səpkili görüşlərdə vətəndaşı birbaşa dinləmək, onları narahat edən problemləri maneəsiz öyrənmək mümkündür. Onun sözlərinə görə, vətəndaşla birbaşa dialoq qaldırılan məsələlərin daha ədalətli və obyektiv həllinə imkan yaradır ki, bu da nəticədə vətəndaş məmnunluğunun təmin olunmasına öz töhfəsini verir.

Yerli sakinlər çıxışlarında onlara göstərilən səmimi davranışdan və qaldırdıqları məsələlərə həssas yanaşmadan razı qaldıqlarını, son dövrlərdə vətəndaş-məmur münasibətlərindən, qayğı və problemlərinin həllinə yönəlmiş çevik addımların atılmasından məmnun olduqlarını bildirərək, bütün bunlara görə cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər.

**Nərimabadda**

Martın 13-də Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov Nərimanabad qəsəbəsinin sakinləri ilə növbəti səyyar görüş-qəbul keçirib.

Səyyar görüş-qəbulda rayonun hüquq mühafizə orqanlarının rəhbərləri, idarə və müəssisələrin nümayəndələri iştirak ediblər.

İcra başçısı ötən görüşdə qaldırılan məsələlərin icra vəziyyəti barədə yerli sakinlərə məlumat verib.

Taleh Qaraşov əhalinin həssas təbəqəsindən olan insanları dinləyib və qayğıları ilə maraqlanıb.

Səyyar görüş-qəbulda qəsəbə əhalisini narahat edən və yerli icra hakimiyyətinin səlahiyyətlərinə aid olan ədalətli qaldırılan bütün məsələlər yerində həllini tapıb, digər məsələlərin həlli üçün aidiyyəti yuxarı qurumlara rəsmi müraciətlərin ünvanlanması səlahiyyətli şəxslərə tapşırılıb.

Qəsəbə sakinləri fikir və istəklərini maneəsiz rayon rəhbərliyinə çatdırıblar. Onlar qaldırdıqları məsələlərin həllinə səmimi yanaşmadan məmnun qalıqlarını bildirərək, vətəndaş-məmur münasibətlərində şəffaflığın təmin olunmasına, ölkədə sosial-iqtisadi inkişafın yüksələn sürətlə artmasına görə cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.



**Aşağı Nüvədidə**

Martın 19-da Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov Aşağı Nüvədi qəsəbəsi inzibati ərazi dairəsinin sakinləri ilə növbəti səyyar görüş-qəbul keçirib. Tədbirdə torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün bərpası uğrunda şəhid olan qəhrəman Vətən övladlarınını xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İcra başçısı öncə yerli insanların timsalında lənkəranlıların ilaxır çərşənbə və Novruz bayramlarını təbrik edib, onlara can sağlığı arzulayıb. Daha sonra Taleh Qaraşov ötən səyyar görüş-qəbulda sakinlər tərəfindən qaldırılan məsələlərin icra vəziyyəti barədə məlumat verib. Onun sözlərinə görə, yerli icra hakimiyyətinin səlahiyyətləri çərçivəsində həll olunan, ədalətli şəkildə qaldırılan bütün məsələlər həllini tapıb, digər məsələlər barədə aidiyyəti üzrə yuxarı dövlət qurumlarına rəsmi müraciətlər ünvanlanıb və artıq bir sıra məsələlər Dövlət Proqramına daxil edilib.

Səyyar görüş-qəbulda vətəndaşların maneəsiz, könüllü şəkildə fikir və istəklərini rayon rəhbərliyinə çatdırmasına tam şərait yaradılıb. ŞİH-nin başçısı qeyd edib ki, heç bir müraciət diqqətdən kənarda qalmır və qaldırılan bütün məsələlər şəxsən onun nəzarəti altındadır.

Taleh Qaraşov yerlərdə keçirilən səyyar görüş-



qəbulların insanların gündəlik qayğı və problemlərinin öyrənilməsi, onları narahat edən məsələlərin yerində araşdırılması, habelə obyektiv qaldırılan məsələlərin ədalətli həllinə nail olunması istiqamətində mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb.

Aşağı Nüvədi qəsəbəsinin və Küvənil kəndinin sakinləri qarşılıqlı açıq dialoq şəklində onları narahat edən problemləri birbaşa icra başçısına çatdırıblar. Onlar qaldlrdıqları məsələlərin həllindən ötrü səmimi yanaşmaya görə rayon rəhbərliyinə təşəkkür edərək, vətəndaşlara göstərilən diqqət və qayğıya, habelə ölkədə sosial-iqtisadi layihələrin uğurlu tətbiqi nəticəsində gündəlik həyat səviyyələrinin yaxşılaşnasına görə cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını çatdırıblar.

**Şıxakəranda**

Martın 27-də Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov təqvim planına uyğun olaraq növbəti səyyar görüş-qəbulunu Şıxakəran kənd inzibati ərazi dairəsinin sakinləri ilə keçirib. Qəbulda icra hakimiyyəti aparatının məsul şəxsləri, hüquq mühafizə orqanlarının rəhbərləri, yerli idarə və müəssisələrin nümayəndələri də iştirak ediblər.

Taleh Qaraşov ötən səyyar görüşdə qaldırılan məsələlərin icra vəziyyəti barədə iştitrakçıları məlumatlandırıb. Bildirilib ki, icra hakimiyyətinin səlahiyyətlərinə aid olan bütün məsələlər həllini tapıb, digər məsələlər barədə aidiyyəti üzrə yuxarı qurumlara rəsmi müraciətlər ünvanlanıb. İcra başçısı qeyd edib ki, heç bir müraciət diqqətdən kənar qalmır və bütün məsələlər şəxsən onun nəzarətindədir. Onun sözlərinə görə, dövlət başçısı cənab İlham Əliyevin göstərişinə uyğun olaraq yerlərdə keçirilən



səyyar görüşlər insanların gündəlik qayğı və problemlərinin öyrənilməsi, onları narahat edən məsələlərin yerində araşdırılması, habelə obyektiv qaldırılan məsələlərin ədalətli həllinə nail olunması məqsədini daşıyır.

Kənd sakinlərini dinləyən T. Qaraşov qaldırılan məsələlərin həllindən ötrü səlahiyyətli şəxslərə müvafiq tapşırıqlarını verib, yerli icra hakimiyyətinin səlahiyyətlərinə aid olmayan məsələlər barədə aidiyyəti üzrə yuxarı dövlət qurumlarına müraciət olunmasını səlahiyyətli şəxslərə tapşırıb.

Sakinlər vətəndaş-məmur münasibətlərinin inkişaf dinamikasından, habelə qaldırdıqları məsələlərə səmimi və nəticəyə yönəlik yanaşmadan razılıqlarını ifadə edərək, ölkədəki sosial-iqtisadi inkişafa və vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində görülən işlərə görə cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını çatdırıblar.

**Şağlaserdə**

Aprelin 3-də Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov növbəti səyyar görüş-qəbulunu Şağlaser kənd inzibati ərazi dairəsinin sakinləri ilə keçirib. Görüşdə icra hakimiyyəti aparatının məsul şəxsləri, hüquq mühafizə orqanlarının rəhbərləri, yerli idarə və müəssisələrin nümayəndələri də iştirak ediblər.

Lənkəran ŞİH-nin başçısı Taleh Qaraşov ötən görüşdə qaldırılan məsələlərin icra vəziyyəti barədə sakinləri məlumatlandıraraq bildirilib ki, icra hakimiyyətinin səlahiyyətlərinə aid olan bütün məsələlər həllini tapıb, digər məsələlər barədə isə aidiyyəti üzrə yuxarı dövlət qurumlarına müraciətlər ünvanlanıb və bu barədə vətəndaşlara məlumat verilib.

İcra başçısı qeyd edib ki, dövlət başçısı cənab İlham Əliyevin göstərişinə uyğun olaraq vətəndaşların bütün müraciətlərinə həssas yanaşılır, araşdırılır, həlli istiqamətində uyğun mexanizmlərin tapılmasına səy göstərilir və nəticəsi barədə qanunamüvafiq müddətdə cavabların verilməsi təmin edilir. Onun sözlərinə görə, vətəndaş müraciətlərinə baxılmasında şəffaflıq tam təmin edilib, heç bir müraciət diqqətdən kənarda qalmır.

T.Qaraşov yerli insanları diqqətlə dinləyib, qaldırdıqları məsələlərin həlli istiqamətində aidiyyəti səlahiyyətli şəxslərə tapşırıq və tövsiyələrini verib.

Sakinlər görüş-qəbuldan və səmimi yanaşmadan məmnun qalıblar.Onlar vətəndaş məmnunluğunun təmin olunmasına, vətəndaşla dövlət qurumları arasında birbaşa dialoq mühitinin formalaşmasına və qaldırdıqları məsələlərə dərhal reaksiya verilməsinə görə dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

**"Lənkəran"**



# MİLLİ QƏHRƏMANIN ANIM GÜNÜ





"Vətən, ana torpaq ugrunda şəhid olanlar, doğma xalqına sədaqət nümunəsi göstərənlər heç vaxt unudulmur. Onların xatirəsi qədirbilən xalqımız tərəfindən xatırlanaraq daim ürəklərdə yaşayır". Bu fikirlər martın 17-də Azərbaycanın Milli Qəhrəmanı Əsgər Ələkbər oğlu Əliyevin anım günü ilə əlaqədar onun adını daşıyan Lənkəran şəhər mədəniyyət və istirahət parkında keçirilən tədbirdə səsləndirilib. Milli Qəhrəmanın ailə üzvlərinin, Lənkəran Şəhər İcra Hakimiyyəti (ŞİH) rəsmilərinin, hüquq-mühafizə orqanları rəhbərlərinin, müharibə və əmək veteranlarının, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri mərasimdə çıxış edənLənkəran ŞİH-nin başçısı Taleh Qaraşov Milli Qəhrəmanın atası Hacı Ələkbər Əliyevə dərin hüznlə başsağlığı verərək, cəsur kursantın xatirəsinin həmişə xalqımız tərəfindən hörmətlə anıldığını, onun şərəfli ömür yolunun məktəblilərə, gənclərə örnək olduğunu bldirib.

Tədbirdə çıxış edən Milli Qəhrəmanın atası Hacı Ələkbər Əliyev onun övladının xatirəsinə bəslənilən ehtirama görə dövlətimizin başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını çatdırıb.

Daha sonra tədbir iştirakçıları Milli Qəhrəmanın abidəsini ziyarət edib, önünə tər çiçəklər düzməklə, ruhuna ehtiramlarını ifadə ediblər.

Qeyd edək ki, Əsgər Əliyev 1974-cü il noyabrın 8-də Lənkəranin Ləj kəndində anadan olub. 1982-1992-ci illərdə Ləj kənd və Haftonu qəsəbə orta məktəblərində təhsil alib. Daha sonra Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinin tank-artilleriya fakültəsində təhsilini davam etdirib.

1995-ci il martın 17-də Bakıda hakimiyyəti zorla devirmək cəhdi zamanı Əsgər Əliyev 4 yaralını xilas edərkən aldığı ikinci güllə yarasından dünyasını dəyişib. Doğulduğu kəndin qəbirstanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Ə.Əliyev ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

**Ağaddin BABAYEV**






# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDİ YAD OLUNUB

Bakıda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən müharibəsi şəhidi, baş leytenant Həsənağa Şakir oğlu Abdullazadənin xatirəsinə həsr olunan anım mərasimi və ona həsr olunan "Yüz on ikinci gün" adlı kitabın təqdimatı keçirilib.

Mərasimdə Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, şəhidlərin ailə üzvləri, yaxınları, döyüş yoldaşları və məktəblilər iştirak ediblər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Tədbirdə şəhidin atası Şakir Abdullazadə, anası Zəminə Abdullazadə, Milli Məclisin deputatları Vüqar İsgəndərov və Müşviq Məmmədli H.Abdullazadənin göstərdiyi qəhrəmanlıq salnaməsindən danışıblar.

Bildirilib ki, 1993-cü il martın 9-da Lənkəran şəhərində anadan olan Həsənağa Abdullazadə 1999-2007-ci illərdə Rövşən Bədəlov adına 9 saylı Lənkəran şəhər tam orta məktəbində, 2007-2010-cu illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. Ali hərbi təhsilini 2010-2014-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) alıb. Ali məktəbi leytenant hərbi rütbəsi ilə bitirib. 2014-2015-ci illərdə Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində iştirak etdiyi zabit təkmilləşdirmə kursunu uğurla başa vurub.

H.Abdullazadə 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Gədəbəy rayonundakı "N" saylı hərbi hissəsində xidmətə başlayıb. 2017-ci ildən xidmətini baş leytenant hərbi rütbəsi altında davam etdirirdi.

Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı olan H.Abdullazadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Murovdağ silsiləsi və Kəlbəcər rayonu istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Qeyd olunub ki, oktyabrın 1-dən H.Abdullazadə ilə əlaqə saxlamaq mümkün olmayıb. Oktyabrın 2-də Kəlbəcər rayonu ərazisində, hakim yüksəkliklər uğrunda gedən döyüşlərdə pusquya düşərək qəhrəmancasına həlak olub. Nəşi uzun müddət tapıla bilməyib. Yanvarın 14-də itkin düşdüyü Kəlbəcər rayonu ərazisində şəhid olduğu müəyyənləşib. İkinci Fəxri xiyabanda torpağa tapşırılıb.

Prezident İlham Əliyevin 2021-ci il 24 iyun tarixli Sərəncamına əsasən H.Abdullazadə ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları və "Rəşadət" ordeni ilə təltif edilib.

**"Lənkəran"**

# VƏTƏN FƏDAİLƏRİ UNUTMUR



Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində rayonun Mansur Əbilov adına Şağlakücə kənd tam orta məktəbi ilə birgə "Tariximiz qürurumuzdur!" layihəsi çərçivəsində "Şəhidlər bizim qürur yerimiz, fəxrimizdir!" adlı tədbir keçirilib.

Tədbir 2023-cü ilin 19-20 sentyabr tarixlərində Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal antiterror əməliyyatı zamanı şəhidlik zirvəsinə ucalan Elsevər Qardaşzadənin doğum gününə həsr edilib.

Əvvəlcə qonaqlar mərkəzin foyesində şəhidin şəxsi əşyalarından və fotolarından ibarət sərgi ilə tanış olublar.

Heydər Əliyev Mərkəzinin direktoru Reyhanə Sadıxova Elsevər Qardaşzadənin mərkəzin rəsm studiyasında yağlı boya ilə çəkilmiş portretini şəhidin ailə üzvlərinə təqdim edib.

Şəhidin ailə üzvləri dövlətimiz tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını çatdırıblar.

Tədbirin bədii hissəsində şagirdlərin ifasında ədəbi-bədii kompozisiya və şəhidin həyat yolunu əks etdirən videoçarx nümayiş olunub.

**"Lənkəran"**



Cəfər Cabbarlı - 125

# ƏDİBİN ARZUSU

***Görkəmli Azərbaycan dramaturqu və teatr xadimi Cəfər Cabbarlı ömrünün qısa, lakin mənalı illərini, demək olar ki, əvvəldən axıra kimi Bakı şəhərində keçirib. Lakin buna baxmayaraq o, mütəmadi olaraq əyalət teatrlarının fəaliyyəti ilə də maraqlanıb, həmin sənət ocaqlarında çalışan aktyor və rejissorlardan dəyərli məsləhətlərini əsirgəməyib. Lənkərana xüsusi məhəbbəti olan ədib bütün ömrü boyu bu əsrarəngiz cənub şəhərində olmaq arzusu ilə yaşayıb.***

Köhnə arxiv sənədləri arasında teatr rejissoru Əli Mənsur Quliyevin Cəfər Cabbarlı ilə görüşləri barədə xatirələri bu gün də mühafizə olunmaqdadır. "1934-cü ildə Lənkəranda işçi-kolxozçu dövlət teatrı yaratmaq haqqında təşəbbüs irəli sürdüm, - deyə Ə.M.Quliyev yazır. - İlk tamaşanı həmin ilin dekabr ayında göstərməli idik. Mən Bakıya gəlib Cəfərlə (C.Cabbarlı ilə - A.B.) görüşdüm. Onu Lənkərana dəvət etdim və dedim ki, teatrın təntənəli açılışı olacaq. Opera teatrından, dram teatrından, xalq maarif komissarlığından da nümayəndələr çağırmışıq. Cəfər güləgülə: - Paraxod məni tutmaz? - dedi. Mən isə: - Yox, "Kalantay" çox böyük paraxoddur, - deyə cavab verdim.



C.Cabbarlı belə məsləhət gördü ki, açılışı yanvar ayında edək. Mən razılaşdım. Ancaq sənətkarın qəfil ölümü bu arzunu ürəyimdə qoydu. Dəfn mərasimindən bir neçə gün sonra Lənkərana qayıtdım".

Bununla belə dramaturqun çox sevdiyi şəhərlə "görüşü" onun əsərinin tamaşaya qoyulması ilə baş tutdu. 1935-ci il fevralın 14-də Lənkəran teatrı C.Cabbarlının "Almaz" pyesinin premyerası ilə öz pərdəsini qaldırdı. İlk tamaşanın quruluşunu teatrın direktoru və rejissoru Əli Mənsur Quliyev vermişdi. Tamaşada iştirak edən aktyor heyəti rayon xalq teatrının yetirmələrindən və Bakı teatrlarından dəvət olunmuş bir neçə artistdən ibarət idi. Ən təqdirəlayiq cəhət isə onda idi ki, Lənkəran teatrına həm də Cəfər Cabbarlının adı verilmişdi.

Lakin 1940-cı ildə məlum olmayan səbəblərdən C.Cabbarlının adı Lənkəran teatrından götürüldü. İndi artıq bu sənət ocağı azərbaycanın tragik aktyoru Hüseyn Ərəblinskinin adını daşımağa başlamışdı. Bizim fikrimizcə, Azərbaycanın ikinci böyük şəhəri Gəncədə fəaliyyət göstərən teatrın da Cəfər Cabbarlının adını daşıması belə bir qərarın qəbul edilməsinə rəvac vermişdi. Buna baxmayaraq, görkəmli dramaturqun əsərləri heç vaxt Lənkəran teatrının repertuarından yerə düşməyib. C.Cabbarlının yaradıcılığı bu sənət ocağında çalışan yeni aktyor və rejissor nəslinin həmişə nəzər-diqqətini özünə cəlb edib.

1973-cü ildən fəaliyyətini bərpa edən Lənkəran Dövlət Dram Teatrının kollektivi də əvvəlki ənənəyə sadiq qalaraq dəfələrlə Cəfər Cabbarlının yaradıcılığına müraciət etməklə, ədibin "Oqtay Eloğlu", "Aydın", "Sevil", "Solğun çiçəklər" kimi dram əsərlərini müvəffəqiyyətlə tamaşaya qoyub. 2019-cu ildə isə teatrda dramaturqun 120 illik yubileyinə tohfə olaraq onun "Vəfalı Səriyyə, yaxud göz yaşı içində gülüş" dramı səhnəyə qoyulub. Bu tamaşa həmin ilin noyabr ayında Bakıda keçirilən "Cəfər Cabbarlı həftəsi" çərçivəsində Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində, habelə Astara, Ağdam, Biləsuvar, Lerik və digər rayonlarda da uğurla nümayiş etdirilib.

Səhnə əsərinin quruluşçu rejissoru Xalq artisti Firudin Məhərrəmov, quruluşçu rəssamı Ramazan Ağayev, bəstəkarı Eldar Salayevdir.

Rolları aktyorlardan Aynur Əhmədova (Səriyyə), Səyad Əliyev (Rüstəm), Xalq artisti Qabil Quliyev (Həmzə), Əməkdar artist Sucəddin Mirzəyev (Səfər), aktyorlardan Qızılgül Quliyeva (Çimnaz), Əbülfəz Axundov (Axund), Tərlan Abdullayev (Məhərrəm), Emin Fərzullayev (Qurban), Miraslan Ağayev (Molla Möhsün), Təranə Fərəcova (Hüsniyyə) və Amil İbrahimli (Əsgər) ifa ediblər.

Qeyd edək ki, "Vəfalı Səriyyə, yaxud göz yaşı içində gülüş" tamaşası bu gün də teatrın repertuarında özünə möhkəm yer tutmaqdadır.

Qəni VƏLİYEV - 110

# SƏNƏTKAR ÖMRÜ



***Lənkəran şəhərinin Mikrorayon ərazisində hamının yaxşı tanıdığı bir ünvan var: Qəni Vəliyev adına şəhər Mədəniyyət Mərkəzi. Bəs Qəni Vəliyev kimdir?***

Azərbaycan teatr sənətinin inkişafında özünəməxsus xidmətləri olan görkəmli səhnə xadimi, respublikanın Əməkdar artisti Qəni Səməd oğlu Vəliyev 1914-cü ildə Lənkəran şəhərində anadan olub. O, ilk təhsilini iki dərəcəli məktəbdə alıb, teatr sənətinə hələ uşaq yaşlarından həvəs göstərib.

1934-cü ildə Lənkəranda Dövlət Dram Teatrı fəaliyyətə başlayanda Q.Vəliyev də teatra aktyor kimi dəvət olunur. Burada o, müxtəlif illərdə uğurla tamaşaya hazırlanmış Səməd Vurğunun "Vaqif", Cəfər Cabbarlının "Aydın", "Sevil", "Od gəlini", Üzeyir Hacıbəyovun "Leyli və Məcnun", Zeynal Xəlilin "Qatır Məmməd", Süleyman Sani Axundovun "Eşq və intiqam", Sabit Rəhmanın "Xoşbəxtlər" və onlarla digər əsərlərdə Qacar, Aydın, Balaş, Elxan, Nofəl, Məmməd, Çingiz, Sadıq kimi rolları zəngin səhnə boyaları ilə, hər obrazın təbiətinə, psixologiyasına xas cizgilərlə yaradıb, müəllifin və rejissorun fikrini, məqsədini tamaşaçıya dolğun surətdə çatdırmağa səy göstərib.

1941-ci ilin aprelində Lənkəran teatrında oynanılan "Vaqif" tamaşasına baxanların arasında görkəmli sənətkarımız, SSRİ Xalq artisti Sidqi Ruhulla da var idi. Qəni Vəliyev "Vaqif" dramından "Mən Qacar nəsliyəm, şahlar şahıyam!" misraları ilə başlayan monoloqu özünəməxsus tərzdə söylədikcə salonda əyləşmiş Sidqi Ruhulla "Məndən sonra Qacarı səhnədə yaşadan ikinci aktyorun mövcudluğunu bir daha yəqin etdim", - deyib. Görkəmli sənətkarın Q.Vəliyevin oyununa verdiyi bu yüksək qiymət, şübhəsiz ki, gənc aktyorun böyük yaradıcılıq nailiyyəti idi.

1941-ci ildə müharibəyə gedən Qəni Vəliyev 1943-cü ildə faşist gülləsindən ağır yaralandığı üçün davadan geri qayıtmalı olur. Q.Vəliyev Hüseyn Ərəblinski adına Lənkəran Dövlət Dram Teatrında yaradıcılıq fəaliyyətini yenidən davam etdirir. 1943-cü ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə teatrın aktyorlarından Qəni Vəliyevə və Kamil Nəcəfova Əməkdar artist fəxri adı verilir. Elə həmin il Q.Vəliyev teatrda direktor vəzifəsinə təyin olunur.

Müharibə illərində digər sənət ocaqları kimi, Lənkəran teatrının da qarşısında çətin və şərəfli vəzifələr dayanmışdı. Teatrın repertuarı tamaşaçılarda vətənpərvərlik duyğularını qüvvətləndirən, onlarda ana torpağa məhəbbət, qələbəyə inam hissi aşılayan əsərlər hesabına zənginləşdi. Qəni Vəliyevin rəhbərliyi ilə teatrda yaradıcı briqadalar təşkil edilmişdi. Bu briqadalar Lənkəranın sovxoz və kolxozlarında, fabrik və zavodlarında, eləcə də qonşu Masallı, Astarxanbazar (indiki Cəlilabad), Astara, Lerik və Yardımlı rayonlarında əməkçilər qarşısında çıxış edir, onları qələbəyə ruhlandırırdı.

Bu dövrdə Qəni Vəliyev teatrda təşkilatçılıq işi ilə yanaşı, bir-birindən maraqlı obrazlar üzərində də işləyir və eyni zamanda bir sıra əsərlərin quruluşçu rejissoru kimi tanınır. Bacarıqlı sənətkar Rəsul Rzanın "Vəfa", Mirzə İbrahimovun "Məhəbbət", Mehdi Hüseynin "İntizar", Zeynal Xəlilin "Qatır Məmməd" və s. əsərləri uğurla tamaşaya qoyur.

Qəni Vəliyev yaradıcılığının çiçəkləndiyi bir vaxtda - 1948-ci ildə 35 yaşında vəfat edib, Lənkəranın Sütəmurdov kəndindəki qəbiristanlıqda dəfn olunub.

2006-cı ildə 96 yaşında dünyasını dəyişmiş Lənkəran Dövlət Dram Teatrının qocaman aktyoru, Azərbaycanın Əməkdar artisti Kamil Nəcəfov sənət dostu haqqında mənə bunları danışmışdı: "Qəni elə bil ki, səhnə üçün doğulmuşdu. Teatrda hamının hörmət və məhəbbətini qazanmışdı. Onunla onlarla tamaşada tərəf müqabili olmuşam. Bir neçə əsərə birgə quruluş vermişik. Mənim dostum ciddi, tələbkar, prinsipial və eyni zamanda son dərəcə təvazökar bir insan idi".

Sənətkarın ölümündən sonra çox təəssüf ki, uzun müddət onu yada salan olmayıb, baxımsızlıq ucbatından məzarı pis vəziyyətə düşüb. Sonralar Lənkəran Dövlət Dram Teatrının aktyoru, 2006-cı ildə dünyasını dəyişmiş Əməkdar artist Əli Salahlının şəxsi təşəbbüsü sayəsində Qəninin qəbri səliqəyə salınıb, yerli hakimiyyət orqanları tərəfindən Lənkəran şəhər Mədəniyyət Mərkəzinə Qəni Vəliyevin adının verilməsi barədə qərar çıxarılıb.

***P.S.*** *Bu il Əməkdar artist Qəni Vəliyevin 110 illik yubileyi tamam olur. Ümid edirik ki, müvafiq qurumlar aktyorun xatirəsini layiqincə qeyd edəcək, onun məzarını abadlaşdıracaqlar.*

**Səhifəni hazırladı: Ağaddin BABAYEV**

# ŞƏHİD LEYTENANTIN ANIM MƏRASİMİ



Martın 27-də Silahlı Qüvvələrimizin zabiti, tağım komandiri Qalib Laim oğlu Zülfüqarlının şəhidlik məqamına çatmasının 9 ili tamam olub. Bu münasibətlə Qəni Vəliyev adına Lənkəran şəhər Mədəniyyət Mərkəzində anım mərasimi keçirilib. Tədbirdə Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini Ülviyyə Əliyeva, Lənkəran-Astara Regional Mədəniyyət idarəsinin rəisi Bəxtiyar Qılıncov, şəhid ailələri, Qarabağ veteranları, mədəniyyət işçiləri və həmçinin ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasimdə səslənən çıxışlarda şəhid zabitin qısa, lakin mənalı ömür yolundan danışılıb. Diqqətə çatdırılıb ki, Qalib Laim oğlu Zülfüqarlı 1992-ci il dekabrın 20-də anadan olub. Lənkəran şəhər 7 saylı tam orta məktəbi bitirdikdən sonra 2010-cu ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olunub. 2014-cü ildə leytenant rütbəsi ilə cəbhənin ön sıralarında hərbi xidmətini davam etdirib. Zabiti olduğu hərbi hissənin döyüşçüləri ilə birlikdə düşmənin layiqli dərsini verən, xalqımıza qələbə sevinci yaşadan oğulların sırasında Qalib Zülfüqarlı da fərqlənib, komandanlığın təşəkkürnamələri ilə təltif olunub. Lakin 2015-ci il martın 27-də Azərbaycan-Ermənistan sərhədinin Qazax rayonu ərazisində düşmən təxribatının qarşısını alarkən şəhid olub. Ölkə başçısı İlham Əliyevin tapşırığı və müdafiə naziri Zakir Həsənovun əmri ilə ölümündən sonra o, "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunub.

Tədbir iştirakçıları Vətən torpaqları uğrunda şəhid olmuş Qalib Zülfüqarlının daim xatirələrdə yaşayacağını, onun qısa, lakin mənalı ömür yolunun gələcək nəsillərə örnək olacağını bildiriblər.



Şəhidin atası Laim Veyselov çıxış edərək, anım mərasimində iştirak edənlərə, tədbirin təşkilatçılarına təşəkkürünü çatdırıb.

Sonda məktəblilərin ifasında şəhidlərə həsr olunmuş şeirlər səsləndirilib.

**S.YƏDULLAOĞLU**

# ŞƏRƏFLİ MÜƏLLİM ÖMRÜ



Ötən əsrin ortalarında Lənkəran və Masallının kəndlərində şagirdlərin təhsil alması üçün fədakarlıq göstərən ziyalılardan biri də Abdulla Qafur oğlu İbadov olub. O, İkinci Dünya müharibəsindən qayıtdıqdan sonra doğulub boya-başa çatdığı Separadi və qonşu kəndlərdə uşaqların təhsilə cəlb olunmaları, biliyə yiyələnmələri üçün çox əziyyət çəkib.

Bu günlərdə Separadi kəndində Abdulla İbadovun xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib. Tədbirdə çıxış edən natiqlər bildiriblər ki, dövrünün tanınmış şəxslərindən olan Abdulla müəllim qardaşı Şükürlə birlikdə Separadi və qonşu kəndlərdən şagirdlər toplayaraq, yaşadığı evin bir otağını sinif kimi istifadə edib, şagirdlərə dərs deyib. Şagirdlərin sayı çoxaldıqca Abdulla müəllim də kəndin imkanlı şəxslərinin köməyi ilə sinif otaqlarının sayını artırıb. Bununla da Separadi kəndində 1925-ci ildə ilk dəfə olaraq dördillik ibtidai məktəbin təməli qoyulub. Məktəbin ilk müəllimi və direktoru da elə özü olub.

Vurğulanıb ki, Abdulla İbadov həmişə savadsız mollalara qarşı mübarizə aparıb. Qızları, qadınları müasir təhsilə cəlb etməsinə görə dəfələrlə təzyiqlərə məruz qalıb. Hətta məktəbin yandırılmaması üçün gözətçiliyi də özü edib.

Abdulla müəllim Masallı və Lənkəranın, ümumilikdə, 13 kəndində təhsil sisteminə əvəzsiz töhfələr verib. Bu xidmətlərinə görə o, dəfələrlə mükafatlandırılıb, 1951-ci ildə isə "Şərəf nişanı" ordeni ilə təltif olunub.

Qeyd edək ki, 1901-ci il martın 10-da Separadi kəndində anadan olan Abdulla İbadov 84 yaşında dünyasını dəyişib.

**Sehran ƏLİYEV**

# ŞƏHİD HAQQINDA KİTAB







Mədəniyyət işçisi Kamil Cabbarovun "Şəhid ömrü" adlı kitabı bu yaxınlarda işıq üzü görüb. Kitabda Gərmətük qəsəbə sakini, 1992-ci ildə Ağdərə uğrunda döyüşlərdə 19 yaşında ikən qəhrəmancasına şəhid olmuş Şahin Hakim oğlu Rüstəmovun qısa, lakin məna ömür yolundan bəhs olunur.

Müəllif kitabda şəhid Şahin Rüstəmovun odlu səngərlərdən ailə üzvlərinə yazdığı məktublara, həmçinin 20 Yanvar və Xocalı faciələrinə dair məlumatlara da yer ayırıb.

"Şəhid ömrü" kitabı geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

**Sehran ƏLİYEV**

# PEŞƏ LİSEYİ KULİNARİYA ÇEMPİONATINDA İŞTİRAK EDƏCƏK



Lənkəran Peşə Liseyinin 3 tələbəsi "Qızıl Şah" kulinariya çempionatında iştirak edəcək. Bu barədə məlumat verən liseyin direktoru Afər Kərimov deyib: "Bilirsiniz ki, bu çempionat peşəkar aşpazlar arasında olduğu kimi, gənclər arasında da keçirilir. Bu il ilk dəfə həmin gənclər arasında bizim tələbələrimiz də olacaq. İki mərhələdə seçim turlarında 3 tələbəmiz qalib olub".

A.Kərimov tələbələrinin çempionatda uğur qazanacağına inanır: "Daxili yarışmalarımız oldu və tələbələrimiz həmin yarışlarda da qətiyyətlə mübarizə apardılar. Yarışlar əməkdaşlıq etdiyimiz "Lankaran Springs Wellness Resort"un təşkilati dəstəyi ilə keçirildi və hər bir tələbəmiz öz bacarığı ilə ölkə səviyyəli bu yarışda iştirak etmək hüququ qazandı".

A.Kərimovun sözlərinə görə, Lənkəran Peşə Liseyində aşpazlıq ixtisasında təhsil alan tələbələr tədris ili ərzində istehsalat təlim və təcrübələrini "Lankaran Spring Wellness Resort"un təcrübəli mütəxəssislərinin rəhbərliyi ilə keçirlər.

"Ölkə səviyyəli yarışa tələbələrimiz ilk dəfə çıxacaq. Burada xarici mütəxəssislər də iştirak edir. Odur ki, həyəcanlı və qürurluyuq. Tələbələrimizin bu yarışda fərqlənəcəklərinə çox inanırıq" - deyə direktor vurğulayıb.

**"Lənkəran"**

# BƏLƏDİYYƏLƏRDƏ GENER BƏRABƏRLİYİ



Heydər Əliyev Mərkəzində Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) təşkilatçılığı ilə "Bələdiyyələrdə gender bərabərliyi siyasətinin həyata keçirilməsi" mövzusunda tədbir keçirilib. Tədbirdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısının müavini, "Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə Monitorinq Qrupunun rəhbəri Ülviyyə Əliyeva, bələdiyyə sədrləri və bələdiyyələrin nəzdində yaradılan "Gender komissiyaları"nın sədrləri və üzvləri iştirak ediblər.

Ü.Əliyeva ölkədə gender siyasəti istiqamətində görülən işlər və qəbul edilən hüquqi aktlar barədə iştirakçıları məlumatlandırıb. Bildirilib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gender siyasəti onun laiqli davamçısı cənab Prezident İlham Əliyev tərəfindən uğurla və ardıcıl olaraq davam etdirilir.

ŞİH başçısının müavini Ü.Əliyeva bildirib ki, tədbirin keçirilməsində məqsəd "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunun 20-ci maddəsinin icrası ilə bağlı "Gender bərabərliyi komissiyaları"nın səmərəli işləməsi istiqamətində mövcud mexanizmlərin təkmilləşdirilməsi və işlərin davam etdirilməsidir.

Daha sonra mövzu ətrafında fikir mübadiləsi aparılıb, təkliflər səsləndirilib.

**Sehran ƏLİYEV**

# MƏKTƏBLƏRDƏ MAARİFLƏNDİRİCİ TƏDBİRLƏR



Lənkəran Şəhər-Rayon Polis Şöbəsinin (ŞRPŞ) təşkilatçılığı ilə "Narkomaniya və erkən nikahlara yox deyək!" mövzusunda şəhər 8 nömrəli tam orta məktəbin şagirdləri ilə maarifləndirici görüş keçirilib.

Tədbirdə çıxış edən Lənkəran ŞRPŞ-nin rəisi, polis polkovniki Azər Cahangirov ümumbəşəri bəla olan narkomaniyanın fəsadlarından, onun insan həyatında buraxdığı acı izlərdən konkret misallardan nümunə gətirməklə bu bəladan qurtulmaq üçün hər kəsin üzərinə mənəvi məsuliyyət düşdüyünü bildirib. Sağlam gəncliyin və etibarlı gələcəyin qurulması baxımından belə maarifləndirici görüşlərin davamlı şəkildə təşkilinin zəruriliyindən danışıb.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində hüquq-mühafizə orqanlarının həyata keçirdiyi qətiyyətli tədbirlərlə bağlı görüş iştirakçılarına məlumat verilib.

Sonra müzakirə olunan mövzular ətrafında digər çıxışlar dinlənilib və şagirdlərin sualları cavablandırılıb

* * *

Yeniyetmə və gəncləri zərərli vərdişlərdən qorumaq, bəşəriyyətin böyük bəlası sayılan narkomaniyaya qarşı mübarizəni daha səmərəli təşkil etmək məqsədilə polis əməkdaşları tərəfindən maarifləndirici görüşlər davam etdirilir.

Həmin silsilədən olan növbəti tədbir Lənkəran Şəhər Rayon Polis Şöbəsinin (LŞRP) təşkilatçılığı ilə Sütəmurdov kənd tam orta məktəbində təşkil edilib.

Çıxış edən Lənkəran ŞRP Şöbəsinin rəis müavini, polis polkovnik-leytenantı Rəşad Rəcəbov bu cür görüşlərin yeniyetmə və gənclərin sağlam həyat tərzini seçməsi sahəsində mühüm addım olduğunu qeyd edib. O, insanların həyat və sağlamlıqlarına ciddi təhlükə yaradan, cinayətkarlığın artmasına təkan verən narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsi barədə geniş məlumat verib, gənclərə sağlam həyat tərzinin mənəvi saflıq və fiziki sağlamlıq üçün yeganə yol olduğunu bildirib.

Görüşdə mövzu ətrafında çıxışlar dinlənilib və məktəblilərin sualları cavablandırılıb.

* * *

C. Cabbarlı adına Lənkəran şəhər 1 saylı Uşaq musiqi Məktəbində "İnsan alverinə yox deyək!" mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirdə məktəbin şagird və müəllim kollektivi, valideynlər iştirak ediblər.

Çıxışlarda insan alveri ilə bağlı cinayət əməllərinin Azərbaycan xalqının milli mənəviyyatına, əxlaqına mənfi nəticələrindən söhbət açılıb və belə halların cəmiyyətin sosial faciəsi olduğunu vurğulanıb. Qeyd olunub ki, insan alveri qurbanlarının müəyyən hissəsi özlərinin məlumatsızlığı, səhvi və günahları üzündən bu vəziyyətə məruz qalırlar.

Tədbirdə müəyyən qism insanların köləliyə çevrilməsinin qarşısını almaq, belə cinayətlərlə mübarizədə ictimai fəallığa nail olmaq üçün maarifləndirici tədbirlərin böyük önəm kəsb etdiyi vurğulanıb.

Maraqlı diskussiya şəraitində keçən tədbirdə iştirakçıları maraqlandırılan bir sıra suallar cavablandırılıb.

**"Lənkəran"**

# LƏNKƏRANDA ELM GÜNÜ




Lənkəran Dövlət Universitetində (LDU) Elm Gününə həsr olunmuş dəyirmi masa keçirilib. Tədbiri giriş sözü ilə açan LDU rektorunun müşaviri, texnika elmləri doktoru, professor Mikayıl Məhərrəmov iştirakçıları Elm Günü münasibətilə təbrik edib. O, Lənkəran Dövlət Universitetində son illərdə görülən işlərdən danışıb, elm və təhsilə kompleks yanaşmanın uğurlu nəticələr verəcəyinə əminliyini ifadə edib.

LDU-nun təbiyyat fakültəsinin dekanı, dosent Ramiz Şəmmədov, aqrar və mühəndislik fakültəsinin dekanı, dosent Balayar Şahbazov, iqtisadiyyat və idarəetmə fakültəsinin dekanı Gülbəniz Əliyeva, tarix-coğrafiya və incəsənət fakültəsinin dekanı, dosent Afaq Qasımova, filologiya və ibtidai təhsil fakültəsinin dekanı, dosent Elman Mirzəyev də çıxışlarında ölkədə elmin inkişafı istiqamətində dövlət səviyyəsində görülən işlərdən bəhs edib, qarşılıqlı fikir mübadiləsi aparıblar.

Çıxışlarda bildirilib ki, hazırda dövlət səviyyəsində həyata keçirilən strategiyanın əsas prioritetlərindən biri bilik iqtisadiyyatının formalaşdırılması, təhsil, elm və innovasiya arasında səmərəli əlaqələrin yaradılmasıdır.

Dəyirmi masada LDU-nun professor-müəllim heyəti, tələbələr, magistrantlar, doktorant və dissertantlar, gənc tədqiqatçılar iştirak ediblər.

* * *

AMEA-nın Lənkəran Regional Elmi Mərkəzində Elm Gününə həsr olunmuş seminarı giriş sözü ilə açan Mərkəzin elmi katibi, tarix üzrə fəlsəfə doktoru Cəmil Quliyev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 9 aprel tarixli sərəncamı ilə Azərbaycanda təsis edilmiş Elm Günü dövlətimizin bu sahəyə dəstəyinin bariz nümunəsidir. Bu günün təsis olunması akademik elmin, ali məktəb elminin və sahə elminin cəmiyyət qarşısındakı hesabatı və bu istiqamətdə gələcək vəzifələrin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. AMEA-nın keçdiyi 80 ilə yaxın məsuliyyətli və şərəfli inkişaf yolu Azərbaycan elminin çoxəsrlik inkişaf tarixinin xüsusi bir mərhələsidir.

Sonra "Sivilizasiyanın inkişafında elmin rolu" mövzusunda Elmi işlər üzrə direktor müavini, biologiya üzrə fəlsəfə doktoru, dosent Sevinc Hüseynovanın məruzəsi dinlənilib. Qeyd olunub ki, elm müasir cəmiyyətin əsas komponentlərindən biridir. Elmin öyrənilməsi



inkişaf və tərəqqimiz üçün böyük əhəmiyyət kəsb edir. Elm, hər şeydən əvvəl, ətrafımızdakı dünyanı anlamağa imkan verir və iqtisadiyyatın bir çox sahələrinin inkişafı üçün əsasdır. Ona görə də elmin öyrənilməsi şəxsi inkişafımız və bütün cəmiyyətin tərəqqisi üçün vacibdir.

Məruzə ətrafında müzakirələrdə Mərkəzin "Tarix və ədəbiyyat" şöbəsinin müdiri Sərraf Talıbov "Bəşər tarixində elm və texnologiyanın rolu", elmi işçi Nəzrin Əlizadə "Elm və sivilizasiyanın vəhdətinin fəlsəfi panoramı" mövzusunda çıxış edərək, rəy və mülahizələrini söyləyiblər.

Seminarda iştirak edən Lənkəran Dövlət Universiteti "Filologiya və ibtidai təhsil" fakültəsinin bir qrup tələbəsinin sualları cavablandırılıb.

**"Lənkəran"**

# "AZƏRİŞIQ" LƏNKƏRANIN 4 KƏNDİNDƏ YENİDƏNQURMA İŞLƏRİ APARIR

Prezident İlham Əliyevin tapşırıqlarına əsasən regionlarda elektrik təsərrüfatını yeniləyən "Azərişıq" ASC Lənkəranın daha 4 yaşayış məntəqəsində-Viravul, Daşdatük, Girdəni və Gərmətürkdə yenidənqurma işlərini davam etdirir.

Adı çəkilən kəndlər arasında 4 min nəfərə yaxın sakini olan Viravul kəndində yeni güc mərkəzləri yaradılır. Paralel olaraq köhnə, sovet dövründən qalma dayaqlar yeni və müasirləri ilə əvəz edilir.

İstismar müddəti başa çatmış açıq naqillərin yerinə Özünüdaşıyan İzolyasiyalı Naqillər (ÖİN) çəkilir. Köhnə sayğaclar həyətyanı sahələrdən çıxarılaraq əvəzində müasir standartlara cavab verən yeni sayğaclar qoşulur. İşlər yekunlaşdıqdan sonra kənd sakinləri dayanıqlı və fasiləsiz



elektrik enerjisi ilə təmin olunmaqla yanaşı, elektrik enerjisi itkisinin qarşısı da alınacaq.

Yenidənqurma işləri Lənkəranla yanaşı, investisiya proqramına uyğun olaraq ölkənin bütün regionlarında, ən ucqar kənd və qəsəbələrdə də mərhələli şəkildə həyata keçirilir.

**"Lənkəran"**

# YENİ TƏYİNATLAR



*Mikayıl Babək oğlu Cəfərzadə*

Aprelin 8-də Lənkəran Şəhər İcra Hakimiyyəti (ŞİH) aparatına yeni təyinatlar olub. ŞİH-nin başçısı Taleh Qaraşovun sərəncamı ilə Mikayıl Babək oğlu Cəfərzadə icra başçısının birinci müavini, Aqil İlqar oğlu Dadaşov isə başçının müavini – Şəhər təsərrüfatı şöbəsinin müdiri vəzifələrinə təyin olunub və kollektivə təqdim ediliblər.

Qeyd edək ki, hər iki şəxs bu vəzifəyə qədər Lənkəran ŞİH başçısı aparatında məsul vəzifələrdə çalışıblar. M.Cəfərzadə başçının müavini – Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri, A.Dadaşov isə Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi müdirinin müavini vəzifələrində işləyib.



*Aqil İlqar oğlu Dadaşov*

Təbrik edirik!

**"Lənkəran"**

# MƏDƏNİYYƏT İŞÇİSİNİN ZƏNGİN SƏS-SƏNƏT ARXİVİ



Lənkəranın Cil kənd sakini Əli Əkbərovun qeyri-adi hobbisi var. Hələ uşaqlıqdan musiqiyə, xüsusilə də muğam ifaçılığı sənətinə maraq göstərən Əli uzun illərdir qrammofon vallarını toplamaqla məşğuldur.

O, musiqi sahəsinə həvəsin ona anasından keçdiyini deyir: "Anam klassik Azərbaycan musiqisinə yaxşı bələd idi. Evdə iş-güclə məşğul olanda görkəmli xanəndələrimizin muğamlarını astaca zümzümə edərdi. Elə həmin zümzümənin mənə həyat yolumu müəyyənləşdirməkdə müstəsna rolu olub".



Əli orta məktəbi bitirdikdən sonra Bakıda Mədəni-Maarif Texnikumuna daxil olub. Qrammofon vallarını toplamağa da həmin dövrdən başlayıb. Hazırda qonşu Şağlaser kəndindəki Sənətkarlıq evində çalışan Əli Əkbərovun evindəki şəxsi arxivində Azərbaycanın 100-dən çox muğam ifaçısının və müğənnisinin səsləri yazılmış 1200-ə yaxın qrammofon valı var.

Əlinin sözlərinə görə, tələbəlik illərində sevdiyi sənətkarların evlərini qapı-qapı gəzməklə bu zəngin musiqi xəzinəsini əldə etməyə nail olub: "İnanın ki, bəzən bir sənətkarın evinə dəfələrlə getməklə istəyimə nail olmuşam. Cibimdəki son qəpikdən belə keçərək mağazadan sevdiyim muğam ifaçısının valını almışam".

Görkəmli xanəndələrdən Cabbar Qaryağdıoğlunun, Məşədi Məhəmməd Fərzəliyevin, Keçəçi oğlu Məhəmmədin və digərlərinin 1904, 1905, 1912-ci illərdə Varşava, Riqa, Vilnüs kimi şəhərlərdə yazılmış valları da bu gün Əli Əkbərovun şəxsi arxivindədir. Deyir ki, onda olan bəzi nadir valları respublikanın hər hansı bir arxivində tapmaq qeyri-mümkündür: "Xoşbəxtəm ki, Şövkət Ələkbərova, Gülağa Məmmədov, Fatma Mehrəliyeva, Tükəzban İsmayılova, Rübabə Muradova və onlarla digər görkəmli sənət xadimləri ilə şəxsən görüşüb söhbətləşmək, onların canlı ifasını eşitmək mənə qismət olub".

Əli evinin bir otağını vallara, kitablara ayırıb. Son illər Azərbaycanda muğam sənətinin inkişafı üçün həyata keçirilən layihələri yüksək qiymətləndirən mədəniyyət işçisi gənc xanəndələrimizin öz sələflərindən hələ çox mətləbləri öyrənməli olduqlarını bildirir: "Qoy cavan ifaçılarımız arxayınlaşmasınlar. Klassik muğam ifaçılarımızın hər birinin dəst-xətti ayrıca bir məktəbdir. Onların təcrübəsindən öyrənmək, əxz etmək isə yalnız fayda verə bilər".

Onu da bildirək ki, hazırda Əli Əkbərovun kolleksiyası həm də şəxsi muzey kimi tanınır. Öyrəndik ki, yazıçı-jurnalist, Əməkdar mədəniyyət işçisi Sədaqət Kərimova unudulmaz sənətkarımız, Əməkdar artist Fatma Mehrəliyevanın sorağı ilə bu yaxınlarda Cil kəndində Əlinin qonağı olub və axtardığı qrammofon vallarını burada tapıb.

Tanınmış diktor, Xalq artisti Eldost Bayram isə Əli Əkbərovun xidmətlərini yüksək dəyərləndirərək yazır: "Əli Azərbaycan mədəniyyəti və incəsənətinin təbliği sahəsində çalışanlar içərisində çıraqla axtarılmağa və qiymətləndirilməyə layiq olan insanlardan biridir".

Əlavə edək ki, Ə.Əkbərov Sənətkarlıq evində çalışmaqla yanaşı, "Babalar" folklor kollektivinin üzvü kimi tez-tez rayonda keçirilən tədbirlərdə də çıxış edir.

Bəli, mədəniyyət işçisi Əli Əkbərovun min bir əziyyətlə topladığı vallar sənət yaddaşımızın saxlanc yeridir. Bu sərvəti qorumalı və gələcək nəsillərə yadigar qoymalıyıq. Bunu biz etməsək, nə vaxtsa, uzun zamanlardan sonra bu valların da sorağı bir çox mədəni sərvətlərimiz kimi yaxın-uzaq ölkələrin muzeylərindən, sərgi salonlarından, şəxsi kolleksiyalarından gələr...

**A.ŞAĞLASERLİ**

Rayonumuzun kəndləri

# ŞİLİM




Şilim Lənkəran rayonunun yaşayış məntəqələrindən biridir. Kənd Lənkəran şəhərindən 8 km cənubda, Lənkəran - Astara şose yolunun solunda yerləşir. Cənubdan Kənarmeşə, qərbdən Seydəkəran kəndləri, şimaldan Aşağı Nüvədi qəsəbəsi, şərqdən Xəzər dənizi ilə həmsərhəddir.

Ərazisi 33 hektar, əhalisi təqribən 450 nəfərdir. Kənddə 1911-ci ildə 5 evdə 32 nəfər (kişi 15, qadın 17), 1933-cü ildə 85 nəfər (kişi 45, qadın 40), 1999-cu ildə 359 nəfər, 2009-cu ildə 388 nəfər, 2019-cu ildə 425 nəfər yaşayıb.

Şilim həm ərazi və həm də əhalisinin sayına görə Lənkəran rayonunun ən kiçik yaşayış məntəqələrindən sayılır. Kənd rayonun 93 yaşayış məntəqəsi sırasında ərazisinə görə 68-ci, əhalinin sayına görə isə 79-cu yerdə durur.

Şilim təhrifə uğramayan toponimlərdəndir. Toponim talış və Azərbaycan dillərində Şilim adlanır. Şilim toponiminin izahı ilə bağlı "Lənkəran" kitabında oxuyuruq: "Kəndin əsl adı Şillimdir. "Şillim" Azərbaycan dilinə tərcümədə (talış dilindən tərcümədə - *İ.Ş.*) "dənizin döyəclədiyi yer" deməkdir" (Böyükağa Hüseynbalaoğlu, Mirhaşım Talışlı. B., 1990, səh. 296).

Fikrimizcə, Şilim toponiminin tam mənası açılmayıb.

Kənd əhalisinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır. Sovet dönəmində (1920-1991) kənddə kollektiv təsərrüfat yaradılıb, təsərrüfat əvvəl M.Ə.Sabir adına kolxoz, daha sonra isə Baloğlan Abbasov adına sovxoz adlandırılıb. Təsərrüfat taxılçılıq (çəltikçilik), tərəvəzçilik və çayçılıq üzrə ixtisaslaşıb.

B.Abbasov adına sovxoz Şilim kəndindən başqa Aşağı Nüvədi qəsəbəsi, Viyən, Kənarmeşə, Seydəkəran və Küvənil kəndlərini əhatə edib. B.Abbasov adına sovxoz respublikamızın ən iri və qabaqcıl tərəvəzçilik təsərrüfatlarından biri olub. Sovxozun 1987-ci ildə illik tərəvəz planı 17600 ton, çay planı isə 43 ton təşkil edib. Ümummilli lider Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olarkən (1969-1982) Lənkəran rayonuna səfərləri zamanı B.Abbasov adına sovxozun tərəvəz sahələrinə baş çəkərək, sovxozun əməkçiləri ilə görüşüb.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən (1991) sonra kolxoz-sovxozlar və istehsalat kooperativləri ləğv edilib, onların mülkiyyətində olan torpaqlar isə pulsuz olaraq paybəlli torpaq sahəsi kimi kəndlilərə paylanılıb.

Şilim kəndində sosial obyektlərdən məscid və ticarət obyektləri vardır.

Şilim kəndi əvvəl Seydəkəran kənd icmasının, daha sonra isə Aşağı Nüvədi kənd/qəsəbə sovetliyinin tərkibində olub. 2011-ci ilin oktyabr ayından Kənarmeşə kənd inzibati ərazi dairəsinin tərkibindədir.

2011-ci il oktyabrın 25-də yaradılan Kənarmeşə kənd inzibati ərazi dairəsi Kənarmeşə mərkəz olmaqla Kənarmeşə, Seydəkəran və Şilim kəndlərini əhatə edir.

2000-ci ilin yanvar ayında ölkəmizdə yerli özünüidarəni həyata keçirən bələdiyyələr yaradılıb. Həmin bələdiyyələrdən biri Kənarmeşə kənd bələdiyyəsi olub. Şilimin də tərkibində olduğu Kənarmeşə bələdiyyəsi 2000-2010-cu illərdə fəaliyyət göstərib. 2010-cu ildə Kənarmeşə bələdiyyəsi ləğv edilərək Aşağı Nüvədi qəsəbə bələdiyyəsinə birləşdirilib. Aşağı Nüvədi bələdiyyəsi Aşağı Nüvədi qəsəbəsi, Küvənil, Kənarmeşə, Seydəkəran və Şilim kəndlərini əhatə edir.

**İldırım ŞÜKÜRZADƏ,**
**Havzava kənd tam orta məktəbinin müəllimi, tədqiqatçı-tarixçi**

# ALLAH RƏHMƏT ELƏSİN

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov tanınmış ziyalı

**VAQİF ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Yaşar Rzayev, Hadi Rəcəbli, Ağakərim Şərifov,Hüseynbala Mirələmov və Rəfail Rzayev tanınmış ziyalı

**VAQİF ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Lənkəran Rayon Ağsaqqallar Şurasının sədri Eldar Hüseynov, Hacı Ələkbər Əliyyev, Hacı Fəxrəddin Canıyev, Hacı Etibar Əhədov, Yaşar Məmmədov, Ramiz Hüseynov, Güloğlan Bağırov və şuranın üzvləri tanınmış ziyalı

**VAQİF ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Lənkəran" qəzetinin baş redaktoru Əlimərdan Əliyev və redaksiyanın yaradıcı kollektivi tanınmış ziyalı

**VAQİF ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
Əlimərdan ƏLİYEV

*HESAB NÖMRƏMİZ:*
AZ30AIIB33010019443860238138
VÖEN 2600244411
Kapital Bankın
Lənkəran filialı
lisenziya № V 343
İndeks: 66920

*ÜNVANIMIZ:*
Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 3 (4-cü mərtəbə)
Telefonlar: 255-35-05, 255-35-49
*E-mail*:
lenkeranqezeti@mail.ru

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və səhifələnmiş, Bakıda "Azərmedia" MMC-nin mətbəəsində çap olunmuşdur.
Tiraj: 350